# "Narkomaniyaya yox deyək" mövzusunda dəyirmi masa

İyun ayının 19-da Qəbələ Mədəniyyət Mərkəzinin konfrans zalında rayon icra hakimiyyətinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə hüquq-mühafizə orqanlarının nümayəndələri, rayonun müxtəlif idarə və müəssisələrində çalışan fəal gənclər, həmçinin ictimaiyyətin nümayəndələri iştirak etmişlər.



Tədbiri giriş sözü ilə açan rayon komissiyanın üzvü Fəxri Soltanov iştirakçıları salamlayaraq dəyirmi masanın keçirilməsində məqsədin bəşəriyyət üçün faciəyə çevrilən narkomaniya və digər zərərli vərdişlərə qarşı mübarizədə hər kəsi fəal olmağa, ictimaiyyəti bu sahədə maarifləndirməyə səsləmək olduğunu bildirdi.

Qəbələ Rayon Polis Şöbəsinin rəis müavini Etibar Babayev çıxış edərək narkomaniyaya qarşı mübarizə sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı"nın icrası məqsədilə rayon polis Şöbəsi tərəfindən görülən işlər haqqında məlumat verərək bildirdi ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə 2015-ci ilin müvafiq dövrü ərzində 6 cinayət faktı aşkar edilmiş, dövriyyədən 345.25 qram qurudulmuş marixuana, 13.74 qram tiryək çıxarılmışdır. Rayonun Bayramkoxalı kəndinin və Nic qəsəbə ərazisində yabanı halda bitmiş kənaf kolları çıxarılaraq yandırılmışdır. Etibar Babayev bu işlərin daim diqqət mərkəzində olduğunu nəzərə çatdırdı.

Sonra rayon Gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi Mübariz Ağayev çıxış edərək rayonda qeydiyyatda olan narkotik istifadəçilərinin sırasında yeniyetmə və gənclərin olmadığını, lakin buna baxmayaraq rayon gənclər və idman idarəsi narkomaniyaya qarşı mübarizə məqsədilə vətəndaş cəmiyyətinin imkanlarından istifadə etməklə, gənclər arasında bu kimi zərərli vərdişlərin mənfi fəsadları barədə, onun həyatımıza və sağlamlığımıza təhlükə, mənəviyyatımıza və dinimizə zidd bir həyat tərzi olması barədə görülən işlərdən və keçirilən tədbirlərdən danışdı.

Daha sonra rayon Mərkəzi Xəstəxanasının həkimi Sərxan Rüstəmov çıxış edərək bildirdi ki, Qəbələ rayonunda narkoloji xidmət rayon mərkəzi xəstəxanasının poliklinika şöbəsindəki narkoloji kabinet tərəfindən aparılır, hal-hazırda narkoloji kabinetdə 46 nəfər narkoloji xəstə dispanser qeydiyyatında olduğunu və bütün xəstələrin respublika narkoloji mərkəzində müayinə olunduğunu bildirdi. Sərxan Rüstəmov bu sahədə rayon mərkəzi xəstəxanası tərəfindən əhali arasında səhiyyə maarifi işləri, söhbətlər aparıldığını, mühazirələr oxunaraq mətbuatda məqlələr dərc edildiyini bildirdi.

Qəbələ Rayon İcra Hakimiyyəti Yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın məsul katibi Şükür Tahirov çıxışında təlim-tərbiyyə müəssisələrində, məktəblərdə müntəzəm olaraq aidiyyəti təşkilatlarla birlikdə uşaq və yeniyetmələr arasında narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə, onun insan orqanizmi üçün zərərli nəticələri və belə hallara qarşı aparılan profilaktika tədbirləri barədə danışaraq bildirdi ki, qeyri-sağlam həyat tərzinə səbəb olan zərərli vərdişlərin qarşısının alınmasında idman ən mühüm vasitədir. Şükür Tahirov idmanda aktivliyin məktəblilərin həyat qabiliyyətlərinin inkişafını təmin etməsi, onların sağlam həyat tərzi ilə bağlı maariflənməsinə müsbət təsir göstərməsi, beləliklə onların zərərli vərdişlərdən, qeyri-sağlam həyat tərzindən uzaq olmağa kömək edəcəyindən danışdı.

Tədbir iştirakçılarına məlumatlandırıcı proşürlər və təlimatlar paylanmışdır. Tədbirin sonunda dəyirmi masa iştirakçılarının təklifləri dinlənilmiş və onları maraqlandıran suallara cavab verilmişdir.

**«Qəbələ».**

## Rayon tarix-diyarşünaslıq muzeyində

### Ordumuz qüdrətimizdir

26 iyun—Silahlı qüvvələr günü münasibətilə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində geniş tədbir keçirilmişdir. Muzeyin direktoru Xalis Məmmədov 26 iyun—Silahlı Qüvvələr Gününə həsr olunmuş tarixi materiallardan, foto-şəkillərdən ibarət sərgi təşkil etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 90-cı illəri ərizində Azərbaycanın milli ordusunu təşkil etməsi, bu sahədə əzm və fədakarlıq göstərməsi həmin materiallarda əksini tapır.

### Daim ucal Azərbaycan

28 iyun Azərbaycanın Avropa Şurasına daxil olduğu günlə əlaqədar muzeydə geniş tədbir keçirildi. Muzeyin direktoru Xalis Məmmədov bu mövzuda məruzə etdi. Azərbaycanın son dövrlərdə Avropaya inteqrasiya etməsi, ilk Avropa oyunlarının Bakıda keçirilməsi haqqında geniş söhbətlər açıldı.

Tədbir iştirakçılar arasında dialoq və suallara cavabla bitdi.

**«Qəbələ».**

# Milli ordumuz inkişaf və təkmilləşmiş dövrünü yaşayır

Azərbaycan Xalq Cümhuriyyətinin uğurlu addımlarından biri Milli Ordunun yaradılması oldu. Məlum olduğu kimi 1917-1918-ci illərdə erməni təcavüzünün genişlənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üzüzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 26 iyun 1918-ci il tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Həmin ilin avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səmədbəy Mehmandarov hərbi nazir, general-leytenat Əlağa Şıxlinski nazir müavini təyin edildilər. Azərbaycan ordusunun Cəmşid Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qaçar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi istedadlı generalları var idi.

Lakin AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.

Sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Sovet dövründə çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. lakin onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd aydın idi: Azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbiçilərin yetişdirilməsinə imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C. Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etdi. Ulu ölndərimiz azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik Məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdu.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ordunun yaradılması günün ən vacib məsələsinə çevrilmişdi. Lakin hələ 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərarın və həmin ilin oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, o dövrün respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi.

Ermənistanın gündən-günə genişlənməkdə olan hərbi təcavüzü Milli Ordunun yaradılması işini sürətləndirməyi tələb edirdi. Lakin ilk vaxtlar yaradılmış hərbi hissələr müxtəlif siyasi qüvvələrin əlində alətə çevrilmişdi. Ordu quruculuğuna yalnız 1993-cü ildən başlamaq mümkün oldu. Bu dövrdən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Görülmüş tədbirlər nəticəsində qısa zaman kəsiyində Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad edildi, cəbhədə təşəbbüs Azərbaycan ordusunun əlinə keçdi. Bu uğurların müvəqqəti olduğunu güman edən düşmən öz havadarlarının köməyindən və silah sursatından istifadə edərək 1994-cü ilin ilk aylarında bütün cəbhə boyu iri miqyaslı hücum əməliyyatına başladı. Lakin Azərbaycan ordu hissələrinin Füzuli, Beyləqan, Ağdam və Tərtər istiqamətlərindəki müqaviməti ilə rastlaşan və Azərbacan əsgərinin qəhrəmanlıq nümunələrinin şahidi olan düşmən cəbhədə atəşkəsə razılıq verməli oldu.

Ulu öndər Heydər Əliyev hərbi təhsil sistemini daha da inkişaf etdirmək məqsədi ilə 1999-cu ilin yanvarın 20- də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır. Ulu öndərin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər açılmışdır.

Hazırda Azərbaycan Silahlı Qüvvələrinin quruculuq prosesi davam etdirilir və ordumuz inkişaf və təkmilləşmiş dövrünü yaşayır. Bu ordu işğal olunmuş ərazilərimizi düşməndən azad etmək, ölkəmizin ərazit bütövlüyünü qorumaq gücünə malikdir.

Tarixi varislik ənənəsinə uyğun olraq Prezidentin fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun—Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

**Aslan CƏLİLOV.**